# Azərbaycana qarşı çirkin kampaniyalar həyata keçirmiş şər yuvalarının layiqli sonu

**"Bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı maraq və hörmət prinsipləri əsasında əlaqələr quran Azərbaycan heç bir dövlətin daxili işinə müdaxilə etmir və öz daxili işinə də müdaxiləni yolverilməz hesab edir. Ölkəmiz hər zaman demokratik təsisatların inkişafına böyük önəm verir. Bu baxımdan, bir çox beynəlxalq siyasi qurumlarla əməkdaşlıq əlaqələri qurulub, amma zaman keçdikcə bəzi beynəlxalq siyasi institutlar müxtəlif maraq qruplarının əlində alətə çevrilərək müstəqil siyasət həyata keçirən ölkələrə qarşı təzyiq vasitəsi kimi istifadə olunmağa başlayıb".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Vüqar Rəhimzadə deyib. Deputat bildirib ki, bu çirkin kampaniyaları "demokratiyaya dəstək", "insan hüquqlarının müdafiəsinə dəstək", "azad mətbuata dəstək" və sair bəhanələr pərdəsi ilə örtməyə çalışıblar. Əsl məqsəd müstəqil siyasəti qəbul etməmək, hər vasitədən istifadə edərək öz maraqlarını reallaşdırmaq olub. Bu sırada ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən Beynəlxalq İnkişaf Agentliyi, "Azad Avropa/Azadlıq Radiosu" Media Korporasiyaları ön planda olublar. Bu qurumlar uzun onilliklər ərzində müxtəlif dövlətlərə, xalqlara, o cümlədən Azərbaycan dövlətinə və xalqına qarşı çirkin kampaniyalar təşkil ediblər. Guya müstəqil olan bu cür qurumlar, əslində, siyasi proseslərə müdaxilə etməyi, cəmiyyətləri çaşdırmağı, ictimai-siyasi prosesləri manipulyasiya etməyi, dövlətçilik prinsiplərini zəiflətməyi fəaliyyətlərində əsas istiqamət seçiblər. Bu məqsədlə ölkə daxilində öz maraqları üçün şəbəkə formalaşdıraraq müxtəlif çirkin niyyətlərini həyata keçirməyə cəhdlər edirdilər. Amma ABŞ-də Donald Trampın prezident seçilməsindən sonra həmin qurumların əsl siması ifşa olunub.

V.Rəhimzadə xatırladıb ki, Donald Tramp martın 14-də ABŞ hökumətinin Qlobal Media Agentliyinin və digər hökumət strukturlarının fəaliyyət dairəsinin əhəmiyyətli dərəcədə azaldılması haqqında sərəncam imzalayıb: "Bu agentlik "Azadlıq radiosu" media korporasiyasına və "Amerikanın səsi" radiostansiyasına nəzarət edir. Bu radiolar uzun onilliklər Azərbaycan dövlətinə və xalqına qarşı çirkin kampaniyalar təşkil ediblər. Özü də bu çirkin oyunlar USAID-nin "humanitar" yardım göstərmək adı ilə bu media qurumlarına ayırdığı qrantlar vasitəsilə həyata keçirilib. ABŞ-nin ideoloji mübarizəsində təbliğat vasitəsi kimi istifadə olunan "Azadlıq Radiosu" və "Amerikanın səsi" uzun illər təyinatları üzrə yox, başqa ölkələrin daxili işlərinə müdaxilə və digər məqsədlər üçün istifadə edilib. Donald Trampın bu qurumların hökumətdən maliyyələşdirilməsinə son qoyulması ilə bağlı qərarı erməni lobbisinin, həmçinin dünya ölkələrində sabitliyin pozulmasında maraqlı qüvvələr tərəfindən hiddətlə qarşılanıb. Hətta onlar Tramp administrasiyasına qarşı total hücuma start veriblər. Səbəb aydındır. Tramp onların illərdir yaratdığı bataqlığı qurutmağa başlayıb. Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında onilliklərlə erməni diasporunu dəstəkləyən belə strukturların fəaliyyətinə toxunaraq bildirdi ki, dəfələrlə biz bu məsələni erməni nümayəndələrinin və onların Brüsseldəki yeni ağalarının qarşısında qaldırmışıq: "Çünki onlar indi böyük qardaşını dəyişiblər. Bu gün bu, Brüsseldir. Prezident Trampın qələbəsinə qədər bu, Dövlət Departamenti, USAID idi. Məhz indi ciddi problemlərlə üzləşən Menendes kimi rüşvətxor Amerika siyasətçiləri idi. Menendes siyahıda hələ sonuncu deyil. Necə deyərlər, bir qaranquşla bahar olmur. Xeyli digərləri var ki, erməni pulunu ciblərinə qoyurlar. Mən onların adını çəkə bilərəm, adları məlumdur: cənab Adam Şif, cənab Frenk Pallone, xanım Nensi Pelosi və bir çox digərləri var. Onlar onilliklər ərzində Azərbaycana hücum çəkmək və onu gözdən salmaq üçün Birləşmiş Ştatlarda erməni diaspor təşkilatlarından pullar alıblar. Beləliklə, biz Prezident Trampa bataqlığın qurudulmasında uğurlar arzu edirik. Bu, asan deyil. Lakin edilməlidir. Həmçinin biz USAID-in Azərbaycanda qeyri-qanuni fəaliyyəti ilə bağlı Amerikanın orqanları ilə məlumat mübadiləsinə hazırıq. Onlar insanlara necə rüşvət verirdilər?! Onlar qeyri-qanuni maliyyə kanallarından necə istifadə edirdilər?! Onlar Azərbaycanın qanunlarını və normalarını necə pozurdular?! İndi məsuliyyətli olmaq vaxtı yetişib. Biz əlimizdə olan bütün informasiyanı təqdim etməyə hazırıq".

Deputat vurğulayıb ki, "Azadlıq" radiosunun "demokratik dəyərlər" bəhanəsi ilə destruktiv fəaliyyətlə məşğul olduğu dəfələrlə bəyan edilib. Bu radio Azərbaycana qarşı qərəzli məlumatların paylaşılmasını birbaşa təşviq edərək hər zaman riyakar fəaliyyəti ilə seçilib. "Soyuq müharibə" dövrünün təbliğat vasitəsi olan "Azadlıq radiosu" və "Amerikanın səsi" uzun illər ərzində yalan informasiyalar yaymaq, başqa ölkələrin daxili işlərinə müdaxilə etməyə cəhd etməklə məşğul olublar. Adıçəkilən qurumlar keçmiş işğal dövründə Azərbaycanın ərazilərinin zəbtini, suverenliyinin pozulmasını, bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün düşməsini dünyaya çatdırdılarmı? Xeyr! Əksinə, aldıqları sifarişlərə uyğun olaraq birmənalı şəkildə Ermənistanın, erməni lobbisinin maraqlarına uyğun çirkin təbliğat ilə məşğul oldular. İkinci Qarabağ müharibəsi, birgünlük lokal antiterror tədbirləri və ötən ilin noyabrında ölkəmizdə keçirilən COP29 zamanı bu qurumlar öz çirkin təbliğatlarını davam etdirdilər. "Hər zaman Azərbaycanın uğurlarına kölgə salmağa və ictimai rəyi manipulyasiya etməyə çalışıblar. Ötən illər ərzində Azərbaycanla bağlı qərəzli və ikili standartlardan çıxış edən çoxlu sayda materiallar yayımlayıblar. Bu baxımdan, həmin qurumların fəaliyyətinin ləğvi və ya məhdudlaşdırılması müxtəlif xarici qüvvələrin dövlətin daxili işlərinə qarışmaq cəhdlərinin qarşısının alınması baxımından vacib addımdır. Ümid edirik ki, Tramp administrasiyasının qərarı müxtəlif ölkələrə, o cümlədən Azərbaycana qarşı da çirkin kampaniyalar həyata keçirmiş bu şər yuvalarının fəaliyyətinə birdəfəlik son qoyacaq. Dövlətimizin başçısı İlham Əliyev ötən il Şuşada keçirilən "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda bir daha diqqəti bu reallıqlara yönəltdi ki, Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur. Faktların manipulyasiyası diqqətdən kənarda qalmır. Ölkəmiz uzun illər bunun qurbanı olub. Əlbəttə, onlardan biri Ermənistan və Azərbaycan arasındakı münaqişə, bütün erməni diasporunun səfərbər olması idi. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər. Azərbaycanı reallıqdan çox uzaq bir şəkildə təqdim edirdilər. Ölkəmizə gələn xarici qonaqlar bildirirdilər ki, biz Azərbaycanın bu dərəcədə inkişaf etmiş ölkə olduğunu gözləmirdik. Dezinformasiyalar beynəlxalq ictimaiyyətin diqqətini əsas məsələlərdən yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir", - deyə siyasətçi əlavə edib.

Deputat bildirib ki, bütün cəhdlərə baxmayaraq, Azərbaycan daim ardıcıl şəkildə hədəflərə doğru inamla addımlayır. Ədalətə və beynəlxalq hüquqa əsaslanan siyasətin uğurları davamlı olmaqla yanaşı, Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunu, söz sahibliyini möhkəmləndirir.

*Əsmər QABİLQIZI,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 20 mart (№ 61).- S.6.